Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.
Heydər Əliyev.



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 16-17-18 (9248-9249-9250) | 23 oktyabr 2017-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 50 qəpik

## Ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini əbədi və dönməz etdi

### Bu fikirlər 18 oktyabr - Dövlət Müstəqilliyi günü ilə əlaqədar rayonumuzda keçirilən tədbirdə səslənmişdir



**Tədbir iştirakçıları Heydər Əliyev parkına gələrək ulu öndərin abidəsi önünə gül dəstələri qoymuş, əziz xatirəsini yad etmişlər.**

İcra Hakimiyyətinin akt zalında keçirilən tədbirdə Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək qeyd etmişdir ki, 26 il bundan əvvəl, Azərbaycan Respublikası Ali Soveti 1991-ci il oktyabrın 18-də keçirilmiş sessiyasında "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını yekdilliklə qəbul etmişdir.

Dövlət müstəqilliyini bərpa edən Azərbaycan həmin illərdə çox ciddi sınaqlar və təhlükələrlə üzləşməli oldu. İdarəetmədəki kobud nöqsanlar, cəbhədəki uğursuzluqlar, ordudakı hərc-mərclik nəticəsində 1993-cü ilin yayında ölkə vətəndaş müharibəsi, dünyanın siyasi xəritəsindən silinmək kimi real təhlükə ilə üz-üzə qalmışdı. Belə bir ağır və mürəkkəb dövrdə zəngin siyasi təcrübəyə və böyük dövlətçilik qabiliyyətinə malik Heydər Əliyevin xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdışı Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasına və möhkəmləndirilməsinə xidmət edən başlıca amil oldu.

Ulu öndərin hakimiyyətə qayıdışından sonra ağır vəziyyətdə olan ölkənin problemlərinin həlli istiqamətində konkret addımlar atılmağa başlandı. 1994-cü il mayın 12-də cəbhədə atəşkəsin əldə edilməsi, dövlətçiliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu, eləcə də ölkə həyatının bütün sahələrində dinamik inkişafın təmin edilməsi baxımından zəruri addım oldu. Azərbaycan vətəndaş müharibəsi və parçalanmaq təhlükəsindən xilas oldu.

Xarici siyasətdə də mühüm nailiyyətlər əldə olundu. 1994-cü ilin sentyabrın 20-də Azərbaycanda yaranan sabitliyin və beynəlxalq aləmdə ölkəmizə artan inam və marağın məntiqi nəticəsi kimi dünyanın aparıcı şirkətləri ilə "Əsrin müqaviləsi" adlandırılan neft sazişi imzalandı.

Ümummilli liderimizin çoxşaxəli fəaliyyətinin nəticələrinə arxalanaraq, onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında hazırda Azərbaycan siyasi, iqtisadi, sosial və hərbi sahələrdə çox böyük tərəqqi əldə etmişdir. Bu gün dövlətimiz dünya birliyində özünə layiqli yer tutmuş, bölgədə geosiyasi mövqelərini möhkəmləndirərək beynəlxalq nüfuz qazanmışdır.

Müstəqilliyimizin 26-cı ildönümünü qeyd edərkən bir daha qürur və iftixar hissi ilə deyə bilərik ki, qazandığımız uğurlar müstəqil Azərbaycanın tarixi nailiyyətləridir. Vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən qorunub saxlanılan müstəqilliyimiz bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və onun əbədiliyi təmin edilir.

Son 14 ildə ölkədə həyata keçirilən effektli iqtisadi islahatlar kursunu uğurla davam etdirərək dövrün tələblərinə uyğun yeni çalarlarla zənginləşdirən dövlət başçısı İlham Əliyev xalq qarşısında verdiyi bütün vədləri səylə, ardıcıl və sistemli surətdə yerinə yetirmişdir. Ötən dövr ərzində ölkəmizin bütün regionlarında olduğu kimi, rayonumuzda da böyük tikinti, quruculuq və abadlıq işləri aparılmış, yeni yollar, su xətləri çəkilmiş, körpülər salınmış, sənaye obyektləri tikilmiş, yeni iş yerləri açılmışdır. Rayonda yeni parklar salınmış, təhsil, səhiyyə, mədəniyyət və idman obyektləri, inzibati binalar tikilərək istifadəyə verilmişdir. Şəhərdə geniş abadlıq və quruculuq işləri aparılmış, köhnə binaların və fərdi yaşayış evlərinin dam örtükləri dəyişdirilmiş, çoxmənzilli binalarda əsaslı təmir işləri aparılmış, şəhərin siması əsaslı şəkildə dəyişmişdir. Hazırda 145 çarpaylıq Xəstəxana kompleksinin, Xalça müəssisəsinin, 1 saylı körpələr evi-uşaq bağçasının, 2 əhəng zavodunun tikintisi davam etdirilir. Bundan başqa kəndlərdə yolların tikintisi və təmiri, Şəhidlər Xiyabanlarının yenidən qurulması, körpələr evi-uşaq bağçalarının, məktəblərin, mədəniyyət evlərinin əsaslı təmiri, içməli su xətlərinin çəkilməsi, subartezian quyularının qazılması, elektrik kabellərin SİP kabellə əvəz olunması işləri davam etdirilir.




YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov, AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal, Qazax RİHB aparatında baş məsləhətçi Vəfa Cəbiyeva, "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Səadət Əliyeva, rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Nəbiyev çıxış edərək müstəqillik günü ilə əlaqədar öz fikir və arzularını bildirmişlər.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbirə yekun vuraraq Dövlət Müstəqilliyi günü münasibətilə bütün tədbir iştirakçılarını və rayon sakinlərini bir daha təbrik etmiş, müstəqilliyimizin daha da möhkəmləndirilməsi yolunda ən xoş arzularını bildirmişdir.

## Milli Qəhrəmanın anım günü qeyd olunmuşdur



**Azərbaycanın Milli Qəhrəmanı Musayev Aqil Hüseyn oğlunun vəfatından 23 il ötür. Milli Qəhrəmanın ildönümü ilə əlaqədar anım tədbiri keçirilmişdir.**

Şəhidlər qəbiristanlığında keçirilən tədbirdə rayon İcra Hakimiyyəti Aparatının məsul işçiləri, idarə, müəssisə və təşkilat rəhbərləri, Milli Qəhrəmanın doğulduğu Aşağı Əskipara kənd sakinləri, RİHB-nın İnzibati Ərazi Dairələri üzrə nümayəndələri, bələdiyyə sədrləri, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin "Ehtiyyatda olan zabitlər" Konfederasiyasının rayon şöbəsinin əməkdaşları, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin üzvləri, KİV nümayəndələri iştirak etmişdir.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov anım tədbirində iştirak etmək üçün Milli Qəhrəmanın uyuduğu Şəhidlər qəbiristanlığına gəlmişdir.

Aqil Musayevin ruhuna dua oxunduqdan sonra məzarı önünə gül dəstələri qoyulmuş, əziz xatirəsi yad edilmişdir.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək Aqil Musayevin keçdiyi döyüş yolundan danışmışdır. Dövlətimiz tərəfindən şəhidlərə, şəhid ailələrinə göstərilən diqqət və qayğıdan söz açmışdır. Qeyd etmişdir ki, Vətənin bütövlüyü uğrunda öz canından keçən şəhidlər hər cür hörmət və diqqətə layiqdirlər.

Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal, ehtiyatda olan zabit, şair Mustafa Rasimoğlu öz çıxışlarında rayon rəhbərliyi tərəfindən Şəhidlər Xiyabanlarında aparılan bərpa və abadlıq işlərindən danışmışlar. Şəhidlərin ölməzliyindən, onların ən uca zirvəyə yüksəlməsindən söz açaraq şəhidlərimizə həsr etdikləri şeirlərini oxumuşlar.

Milli Qəhrəmanın atası Hüseyn Musayev çıxış edərək onlara göstərilən diqqət və qayğıya görə Ölkə Başçısı İlham Əliyevə şəhid ailələri adından, öz adından dərin minnətdarlığını bildirmişdir.

Qeyd edək ki, Azərbaycanın Milli Qəhrəmanı Musayev Aqil Hüseyn oğlu 1974-cü il noyabrın 3-də Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olmuşdur. 1993-cü il mayın 18-də Milli Ordu sıralarına çağırılan A.Musayevin ilk döyüşü Ağdam bölgəsində olmuşdur. O, Füzuli və Tərtər bölgələrində də erməni işğalçılarına qarşı aparılan əməliyyatlarda fəal iştirak etmişdir. Füzuli istiqamətində gedən döyüşdə yaralanmışdır. Bir müddət müalicə olunduqdan sonra yenidən səngərə qayıtmışdır.



Böyük arzularla yaşayan Aqilin arzuları yarımçıq qaldı. 1994-cü il oktyabrın 5-də Gəncə hadisələri zamanı qiyamçı dəstənin zərərsizləşdirilməsində iştirak edərkən qəhrəmancasına həlak olmuşdur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 5 oktyabr 1994-cü il tarixli 215 saylı fərmanı ilə Musayev Aqil Hüseyn oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Qazax rayonundakı Şəhidlər qəbiristanlığında dəfn olunmuşdur.

Qazax şəhərində xatirəsinə bulaq var və küçələrdən biri onun adını daşıyır.

## Taxılçılığın inkişafına dair müşavirə keçirilmişdir

**Qazax rayonunda taxılçılığın mövcud vəziyyətinə və inkişafına dair müşavirə keçirilmişdir. Müşavirədə icra aparatının məsul işçiləri, RİHB-nın İnzibati Ərazi Dairəsi üzrə nümayəndələri, bələdiyyə sədrləri, işçi qrupunun üzvləri, idarə və müəssisə rəhbərləri, sahibkarlar, SİB sədrləri və KİV nümayəndələri iştirak etmişlər.**

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov müşavirəni giriş sözü ilə açaraq ötən təsərrüfat ilində əldə olunmuş uğurlar, qazanılmış nailiyyətlər və qarşıda duran vəzifələr haqqında danışmışdır. Qeyd etmişdir ki, Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə kənd təsərrüfatının inkişafında yeni mərhələ başlamışdır. Əsas məqsəd kənd təsərrüfatının müasir texnologiyalar əsasında inkişafına nail olmaq, yerlərdə potensial imkanlardan maksimum yararlanaraq ixracyönümlü məhsulların istehsalına diqqəti artırmaq, qeyri-neft sektorunu inkişaf etdirmək, əhalinin həyat səviyyəsini yüksəltməkdir.

Bildirmişdir ki, rayon ərazisinin ümumi əkin sahəsi 21,180 hektardır. 2017-ci ildə 19,500 hektar sahədə əkin aparılmış, bu da keçən illə müqayisədə 3000 hektardan çoxdur. 2018-ci ilin məhsulu üçün 20000 hektardan artıq sahədə əkin aparılması nəzərdə tutulur. 2017-ci ilin məhsulu üçün əkilmiş 11039,8 hektar taxıl sahəsindən 36469 ton məhsul istehsal edilmiş, məhsuldarlıq 33,03 sentner olmuşdur. Bu nəticəyə yüksək repreduksiyalı toxumlardan istifadə olunması və məhsulun becərilməsi zamanı bütün aqrotexniki qaydalara əməl edilməsi sayəsində nail olunmuşdur. Rayonumuzda taxıl biçini 55 kombayn vasitəsilə vaxtında və itkisiz başa çatdırılmışdır.

2017-ci ildə rayonumuza cəmi 1481 ton müxtəlif növ mineral gübrələr gətirilərək güzəştli qiymətlərlə istehsalçılara satılmışdır. 2018-ci ilin məhsulu üçün əkiləcək sahələrə 2160 tondan artıq müxtəlif növ mineral gübrələr sifariş verilmişdir. Bol məhsul əldə etmək üçün keyfiyyətli toxumlardan istifadə edilməlidir. Hazırda həmin toxumların rayonumuza gətirilməsi istiqamətində işlər aparılır. Bundan başqa rayon ərazisində 2 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir ki, onların da istehsal etdiyi toxumlardan istifadə olunacaqdır.



Qazax rayonu ərazisində kənd təsərrüfatına göstərilən diqqət və qayğının nəticəsidir ki, son illər əkin sahələrində ciddi artım müşahidə olunur. Lakin əkilmiş məhsulların becərilməsi zamanı kənd təsərrüfatı texnikalarının çatışmazlığı hiss olunur. Ona görə də Qazax rayonunun lazım olan texnikalarla təmin edilməsi məqsədi ilə Kənd Təsərrüfatı Nazirliyi qarşısında məsələ qaldırılmışdır.

Bol məhsul əldə etmək üçün suvarma suyunun nə dərəcədə vacib olduğunu hamımız yaxşı bilirik. Bunun üçün 2017-ci ildə rayon ərazisində 275 km suvarma arxlarında təmizləmə işləri aparılmışdır. 2018-ci ildə də arxların təmizlənməsi prosesi davam etdiriləcəkdir.

Respublikada kənd təsərrüfatı bitkiləri məhsulları istehsalında daha böyük artıma nail olunması məqsədilə əkin sahələrinin suvarma suyu ilə təminatının daha da yaxşılaşdırılması və əhalinin içməli suya tələbatının ödənilməsi məqsədilə Prezident İlham Əliyev 5 iyun 2017-ci il tarixdə Sərəncam imzalamışdır. Sərəncama əsasən rayonumuzun Birinci Şıxlı, Çaylı, Alpout, Canalı və Hüseynbəyli kəndlərində subartezian quyuları qazılacaqdır. Bundan əlavə, 2018-ci ildə 11 ədəd quyunun qazılması planlaşdırılır ki, bu da bol məhsulun əldə olunmasına birbaşa müsbət təsir göstərəcəkdir.

Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Məmməd Alıyev məruzə ilə çıxış edərək taxılçılığın mövcud durumu və bu sahənin inkişaf etdirilməsi istiqamətində görülən və görüləcək işləri rəqəmlərin dili ilə müşavirə iştirakçılarının diqqətinə çatdırmışdır.

Qazax Kənd Təsərrüfatı idarəsinin rəisi Həmid Pənahov, Birinci Şıxlı Kəndli Fermer Təsərrüfatının direktor müavini Səfurə Vəliyeva, Qazax "Aqroservis" ASC-nin direktoru Vilayət Məmmədov, rayon bitki mühafizə mərkəzinin rəisi Əli Mustafayev, sahibkar, toxumçuluq təsərrüfatının rəhbəri Asif Yusifov, ağsaqqal, aqronom Osman Mustafayev çıxış edərək rəhbərlik etdikləri sahələrdə taxılçılığın inkişaf etdirilməsi üçün yeni təsərrüfat ilində görüləcək işlərdən söz açmışlar.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov müşavirəyə yekun vuraraq qarşıda duran vəzifələrdən danışmış, tapşırıq və tövsiyələrini vermişdir.

## Beynəlxalq Müəllimlər Günü

**Respublikanın hər yerində olduğu kimi, rayonumuzda da 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə bayram tədbiri keçirilmişdir. Tədbirdə rayonda çalışan müəllimlər, məktəb direktorları, qabaqcıl təhsil işçiləri və KİV nümayəndələri iştirat etmişdir.**



Tədbirdən əvvəl ulu öndər Heydər Əliyevin əziz xatirəsi anılmış və abidəsi önünüə gül-çiçək dəstələri qoyulmuşdur.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov giriş sözü ilə çıxış edərək tədbir iştirakçılarını salamlamış, Beynəlxalq Müəllimlər Günü münasibətilə bütün müəllimləri təbrik etmiş, onlara möhkəm cansağlığı və işlərində yeni-yeni uğurlar arzulamışdır.

Qeyd etmişdir ki, 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü YUNESKO-nun qərarı ilə 1966-cı ildən bayram kimi qeyd olunur. Ölkəmizdə isə müəllimlər günü 1993-cü ildən keçirilir.

"Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq" deyən ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirmiş, onlara böyük hörmətlə yanaşmış, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalmışdır.

Son illərdə Azərbaycanda təhsilin inkişafının dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilməsi, təhsil işçilərinə hərtərəfli qayğı dövlətin öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindən xəbər verir. Bunun nəticəsidir ki, ölkəmizdə heç bir dövrdə olmadığı qədər yeni məktəb tikilmiş, əsaslı təmir olunmuşdur. Həm də bu proses paytaxtla yanaşı, bütün bölgələri də əhatə edir. Heydər Əliyev Fondunun dövlətin bu fəaliyyət proqramına verdiyi dəstək isə öz mükəmməlliyi ilə seçilir. Fond ölkədə məktəb tikintisində yaxından iştirakla yanaşı, onların əyani vəsaitlər, şagirdlərin məktəb ləvazimatı ilə təminatında da mühüm rol oynayır. Bütün bu tədbirlər Prezident İlham Əliyevin verdiyi fərman və sərəncamlar əsasında həyata keçirilərək Azərbaycanda təhsilın inkişafına təkan vermişdir.







Sonra İcra Başçısı Rəcəb Babaşov Ölkə Prezidenti İlham Əliyevin 3 oktyabr 2017-ci il tarixli Sərəncamı ilə Xanlıqlar kənd tam orta məktəbin biologiya müəllimi Hüseynxanova Xatın Zakir qızını "Əməkdar müəllim" fəxri adına layiq görülməsi və M.Hüseyn adına məktəb-liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi Əliyeva Rahilə Alı qızını isə "Tərəqqi" medalı ilə təltif olunması münasibətilə təbrik etmiş, onlara möhkəm cansağlığı və əmək fəaliyyətlərində yeni-yeni uğurlar arzulamışdır.

Xatın Hüseynxanova və Rahilə Əliyeva öz çıxışlarında yüksək ada və dövlət təltifinə layiq görüldükləri üçün Prezident İlham Əliyevə bütün müəllimlər adından öz dərin minnətdarlıqlıarını bildirmişlər.

Rayon Təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı çıxış edərək ötən dərs ilində görülmüş işlərdən, qazanılmış nailiyyətlərdən və yeni dərs ilində qarşıya qoyulmuş vəzifələrdən danışmışdır. Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova təhsil sahəsinə göstərdiyi diqqət və qayğıya görə Fəxri Fərman təqdim etmişdir.

BDU Qazax filialının direktoru, coğrafiya elmləri doktoru, professor Vüsət Əfəndiyev, AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal, Təhsil şöbəsinin aparıcı məsləhətçisi Rasim Carçıyev, məktəb-liseyin direktoru Tahirə Comərdova, Alpout kənd tam orta məktəbin müəllimi, əməkdar müəllim Sakibə Nəbiyeva, Çaylı kənd 2 saylı tam orta məktəbin direktoru Abbas Carçıyev və başqaları çıxış edərək müəllim günü münasibətilə bütün müəllimləri təbrik etmişlər.

Tədbirin sonunda təlim-tərbiyə işlərində fərqlənən bir qrup müəllim və təhsil işçisi rayon İcra Hakimiyyəti başçısının, Təhsil şöbəsinin və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Qazax rayon komitəsinin Fəxri Fərmanları ilə təltif olunmuşlar.

Sonra tədbir bayram süfrəsi ətrafında davam etmişdir.

## Ağköynək kəndinə içməli su çəkilmişdir

**Qazax rayonunda problemlərdən biri də əhalinin içməli suya olan tələbatı idi. Ötən son 1 il yarım vaxt ərzində bu problem rayon rəhbərliyinin apardığı məqsədyönlü işlər nəticəsində aradan qaldırılır. Artıq Qazaxbəyli, Ürkməzli, Xanlıqlar, Alpout, Kəmərli, Orta Salahlı, Bala Cəfərli kəndlərinə içməli su çəkilmişdir.**

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Ağköynək kəndində olarkən kənd sakini Musayeva Minə Namaz qızı yaşadıqları əraziyə içməli su çəkilməsi barədə müraciət etmişdi. Rayon rəhbərliyi ağbirçək ananın müraciətinə diqqətlə yanaşaraq həmin əraziyə su çəkilməsi barədə tapşırıq vermişdi.

Aradan cəmi bir neçə gün keçəndən sonra Ağköynək kəndinin qeyd olunan ərazisinə içməli su çəkilmişdir. Bununla əlaqədar rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov həmin əraziyə gələrək sakinlərin sevincini bölüşmüşdür.



Sakinlərdən Maarif Cəfərov, Famil İsmayılov, Emelya Musayeva, Qəmər Mehtiyeva və başqaları onların yaşadıqları evlərə su çəkilməsinə görə Ölkə Başçısı İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirmişlər. Rayon rəhbərliyinə də ən xoş arzularını çatdırmışlar. Beləliklə, Ağköynək kəndində yaşayan daha 25 ailənin su problemi həmişəlik həll olunmuşdur.

Sonra Rəcəb Babaşov Qarapapaq kəndində "Rizman" deyilən əraziyə gələrək içməli su çəkilməsi ilə əlaqədar ona müraciət etmiş vətəndaşlarla görüşmüşdür.

Sakinlərdən Mahal Quliyev, Nazanı Məhərrəmova, Sima Quluyeva, Lumu Musayeva və başqaları uzun illərdən bəri burada yaşayan 25-30 ailənin içməli sudan korluq çəkdiklərini söyləmişlər. Qeyd etmişlər ki, Sizə müraciətdən sonra icra aparatının məsul işçiləri bizimlə görüşmüş və lazımi tədbirlərin görüləcəyini bildirmişlər.

İcra Başçısı sakinləri diqqətlə dinlədikdən sonra qeyd etmişdir ki, Ölkə Başçısının müvafiq sərəncamina əsasən rayonumuzda tezliklə 11 ədəd artezian quyusunun qazılmasına başlanılacaqdır. Həmin quyulardan biri sizin yaşadığınız bu ərazidə qazılacaq və probleminiz öz həllini tapacaqdır.

Sakinlər onların müraciətinə belə operativ reaksiya verdiyinə və onlarla görüşə gəldiyinə görə Ölkə Başçısına, rayon rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

**Elçin İSMAYIL**

# 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun

# HESABAT MƏRUZƏSİ

**2017-ci ilin 9 ayı rayonumuz üçün də uğurlu olmuşdur. Qazax rayonu üzrə 2017-ci ilin yerli gəlir və xərclərinin proqnozu 9.249.000 manat məbləğində müəyyənləşdirilmişdir. 2017-ci ilin 9 ayında yerli daxilolmalar 6.386.435 manat proqnoza qarşı 7.245.924 manat və ya 113,46 faiz yerinə yetirilərək büdcəyə 859.489 manat artıq vəsait mədaxil olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə büdcəyə 2.381.265 manat və ya 48,95 faiz çox vəsait daxil olmuşdur.**



2017-ci ilin 9 ayında qarşılıqlı hesablaşmalar əsasında 809.004 manat vəsait daxil olmuş və 694.731 manat vəsait öz təyinatı üzrə xərc edilmişdir. Yekun olaraq 2017-ci ilin 9 ayında yerli gəlirlər cəmi 7.195.439 manat proqnoza qarşı 8.054.928 manat, yəni 11,94 faiz yerinə yetirilərək bütövlükdə büdcəyə 859.489 manat, yəni 11,94 faiz çox vəsait mədaxil olunmuşdur. 2017-ci ilin 9 ayında yerli xərclər 7.355.446 manat proqnoza qarşı 6.021.817 manat icra olunaraq 81,87 faiz icra olunmuşdur.

Rayon ərazisində 7 özəl bank filialı, 1 özəl bank şöbəsi, 1 kredit ittifaqı və 4 bank olmayan kredit təşkilatı fəaliyyət göstərir. 2017-ci ilin 9 ayı ərzində əhaliyə 8.900.070 manat kredit verilmişdir. Əhalidən 1.603.069 manat və 321.378 ABŞ dolları və 15.000 avro əmanət cəlb olunmuşdur. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 94 yeni iş yeri açılması nəzərdə tutulan 75 layihə üzrə 935.000 manat kredit verilmişdir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Qazax rayon şöbəsi tərəfindən əhalinin pensiya və sosial müavinətlərinin ödənilməsi üçün 2017-ci ilin 9 ayında 27.800.000 manat vəsait köçürülmüşdür. Şöbədə 2017-ci ilin 9 ayı ərzində sosial sığorta haqları üzrə yığım proqnozu 93,9 faiz yerinə yetirilmişdir. Belə ki, 2.275.700 manat proqnoza qarşı 2.138.700 manat vəsait toplanmışdır. O cümlədən, bu göstərici büdcə təşkilatları üzrə 1.399.700 manat proqnoza qarşı 1.341.100 manat toplanmaqla 95,7 faiz, qeyri-büdcə təşkilatları üzrə 875.700 manata qarşı 797.700 manat olmaqla 91,1 faiz yerinə yetirilmişdir. Toplanmış vəsait 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 150.700 manat çox olmuşdur.

2017-ci ilin 9 ayında 1.414 ailənin 5.475 üzvünə 1.882.000 manat ünvanlı sosial yardım, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə iştirak etmiş 2.424 nəfər müharibə veteranına 1.174.800 manat müavinət, 4.121 nəfərə 2.094.000 manat sosial müavinət ödənilmişdir.

Hesabat dövrü ərzində əhalinin elektrik enerjisi və təbii qaz yanacağı ilə təmin olunması sahəsində də müəyyən işlər görülmüşdür.

2017-ci ilin 9 ayı ərzində Qazax Elektrik şəbəkəsi tərəfindən 110/35/6 və 35/10/6 kv-luq Daş Salahlı və Şıxlı yarımstansiyalarında, eləcə də 12 ədəd 35/10 kv-luq yarımstansiyalarda olan avadanlıqlarda cari təmir işləri aparılmışdır. 10/0,4 kv-luq yarımstansiyalarda 442 ədəd transformatorda cari təmir işləri aparılmış, 0,4 kv-luq şitlərdə 22 ədəd ayrıcı yenisi ilə əvəz edilmiş, 18 ədəd zədəli transformator təmir edilərək sxemaya qoşulmuşdur. Hava xətlərində 95,89 km uzunluğunda cari təmir işləri aparılmış, 1.609 ədəd izalyator dəyişdirilmişdir. 34,3 km məsafədə ağaclar budanmış, 39,65 km uzunluğunda tarımlama işləri aparılmış, 266 ədəd ağac dayaq beton dayaqla əvəz edilmişdir. 9,4 km uzunluğunda zədəli naqillər yenisi ilə əvəz olunmuşdur. Qazax şəhəri, Kosalar, Çaylı və Daş Salahlı kəndlərində SİP kabelin çəkilişi üçün 196 ədəd metal dayaq, 39 ədəd beton dayaq quraşdırılmış və 13,86 km uzunluğunda SİP kabel çəkilmişdir. Kosalar kəndində yeni salınmış məhəllənin işıqlandırılması üçün 1 ədəd 160 kv gücündə transformator quraşdırılmışdır. İtkilərin azaldılması məqsədilə 5 ədəd transformator sxemadan çıxarılmışdır. 97 ədəd dayaq məhəllələrdən çıxarılaraq evlərin çöl hissəsində quraşdırılmışdır. Rayonun 22 ədəd yaşayış hissəsini ikitərəfli işıqlandıran 35 kv-luq Göyəzən və 35 kv-luq Qazax-1 hava xətlərində fazalaşma aparılmışdır. Vaxtı ilə məcburi köçkünlər yaşayan "Göy bina" kimi tanınan ərazidə yeni daha güclü transformator quraşdırılaraq istifadəyə verilmişdir. Rayonun əkin sahələrini suvarmaq üçün 35/6 kv-luq birinci Pillə Nasos yarımstansiyası işə salınmışdır. 2017-ci ilin 9 ayı ərzində Şəbəkə üzrə cəmi pul yığımı 4.991.800 manat olmuşdur. O cümlədən, pul yığımı yerli əhali sektorunda 1.908.100 manat, sərfiyyat dəyəri isə 1.964.300 manat, yığım faizi 97,1 faiz olmuşdur. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə şəbəkə üzrə cəmi pul yığımında 1.410.800 manat, əhali sektorunda isə 381.300 manat artım olmuşdur.

Bildiyiniz kimi Qazax rayonunun bütün yaşayış məntəqələri təbii qazla təmin olunmuşdur. Şəmkir RQİİ-nin Qazax Xidmət Sahəsi tərəfindən 9 ayda 106 nəfər yeni abonent təbii qazla təmin olunmuşdur. 587 ədəd məişət qaz sayğacları yeni qaz sayğacları ilə, 126 ədəd mexaniki qaz sayğacı Smart tipli sayğaclarla əvəz olunmuşdur. Rayon ərazisində 1.527 p/m qaz xətləri korroziyaya uğradığına görə yenisi ilə əvəz olunmuş, müxtəlif diametrli 2.595 p/m qaz xətti torpaq altından çıxarılaraq dayaq üzərinə qaldırılmış, 6.360 p/m qaz xətləri rənglənmişdir. Rayon ərazisində 13 ədəd müasir tipli qaz tənzimləyici şkaflar (ŞQTM) quraşdırılmışdır. Əhali abonentlərə satılmış qazın dəyəri 2.451.858 manat, yığım isə 2.759.724 manat olmaqla 112,6 faiz yerinə yetirilmişdir. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yığım 18,1 faiz çox olmuşdur.

Qazax Telekommunikasiya Qovşağı tərəfindən 2017-ci ilin 9 ayının yekununa görə 1.065.000 manat tarif gəliri proqnozuna qarşı 1.064.100 manat gəlir əldə edilərək proqnoz tapşırığa 100 faiz əməl olunmuşdur. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 75.200 manat artıq vəsait yığılmışdır. 9 ay ərzində 79 ədəd yeni telefon çəkilmiş, 29 ədəd telefon şəbəkəyə bərpa olunmuş, "Aztelekom" Net provayderi üzrə 349 ədəd sürətli internet xidmətinə yeni qoşulma olmuş, ümumi istifadəçi sayı 827 nəfər artaraq 5.539-a çatmışdır. Rayon ərazisində 18 ədəd köhnə ağac dayaq dəmir dayaqla əvəz olunmuş, 54 ədəd yeni dəmir dayaq, 36 ədəd isə ağac dayaq basdırılmış və rabitə xətləri qaydaya salınmışdır. Daş Salahlı kəndi ərazisində 100 nömrəlik xətt təsərrüfatı tikilib istifadəyə verilmişdir.

Hesabat dövründə Qazax Poçt filialı tərəfindən əhalidən enerji, qaz, su, telefon pulları, həmçinin vergi, DSMF, DİN-nin ödənişləri qəbul edilərək aidiyyəti təşkilatların bank hesablarına köçürülmüş, plan tapşırıqları 110 faiz yerinə yetirilmişdir, yəni 258.640 manata qarşı 284.468 manat yerinə yetirilmişdir. Filial tərəfindən 349 ədəd bağlama qəbul edilmiş və 327 ədəd bağlama müxtəlif ünvanlara göndərilmişdir. Həmçinin 4.804 məktub göndərilmiş, 9.748 ədəd məktub qəbul edilmişdir. "Sınıq Körpü" Buraxılış Məntəqəsində yerləşən poçt şöbəsi tərəfindən 46.527 manat gömrük haqları operativ şəkildə yığılaraq aidiyyəti hesablara vaxtında köçürülmüşdür.

"Qazax-Avtovağzal" ASC-i 2017-ci ilin 9 ayı ərzində plana 107 faiz əməl edərək 301.000 nəfər sərnişinə xidmət göstərmişdir.

Qazax "Su-kanal" idarəsi tərəfindən 2017-ci ilin 9 ayı ərzində 6.124 əhali, 246 qeyri-əhali abonentlərə xidmət göstərilmiş və 404.856 manat vəsait toplanmışdır. Bu isə satışın 93 faizini təşkil edir. 2017-ci ilin ötən dövründə abonentlərin sayı 121 abonent olmaqla 123 nəfər artmışdır. Təşkilat tərəfindən 2 ədəd artezian nasosu yenisi ilə əvəz olunmuş, 3 ədəd artezian nasosu və 4 ədəd su mühərriki əsaslı, 7 ədəd su mühərriki cari təmir olunmuş, 6 ədəd su mühərrikinin nasos hissəsi əsaslı təmir olunmuşdur. Qazaxbəyli kəndi ərazisində yerləşən məcburi köçkünlər üçün salınmış qəsəbənin çirkabsu təmizləmə qurğusunda yerləşən 3 ədəd elektrik mühərriki və 2 ədəd nasos əsaslı təmir olunmuşdur.

Rayon İcra Hakimiyyəti başçısının tapşırığına əsasən Babək küçəsində yerləşən 30 yaşayış evinin tullantı sularının axıdılması məqsədilə diametri 200 mm olan uzunluğu 550 m uzunluğunda yeni kanalizasiya xətti çəkilmiş, Ş.Çobanov 10 ünvanında yerləşən yaşayış evlərinin tullantı sularının axıdılması üçün yeni kanalizasiya xətti və şanbo tikilib istifadəyə verilmiş, H.Əliyev prospekti 179 saylı binanın zirzəmisindəki daxili magistral xətt



yenisi ilə əvəz edilmiş və Ağköynək kəndində 40 yaşayış evinə subartezian quyusundan su xətti çəkilib istifadəyə verilmişdir.

2017-ci ilin 9 ayı ərzində Qazax Kommunal Müəssisələri Kombinatına 359.861 manat vəsait daxil olmuşdur. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 97.084 manat çoxdur. Ölkə Prezidentinin tapşırığı əsasında işsizliyin aradan qaldırılması məqsədilə 2017-ci ilin yanvar ayından Kommunal Müəssisələri Kombinatının yaşıllaşma və təmizlik sahələrində 108 nəfər işlə təmin olunmuşdur.

Qazax Mənzil İstismar Sahəsi tərəfindən ötən 9 ay ərzində 17 binanın dam örtüyündə sınmış və çatlamış şiferlər dəyişdirilmiş, çox mərtəbəli yaşayış binalarının tüstü bacaları və zirzəmiləri təmizlənmiş, 13 binanın zirzəmisində olan kanalizasiya xətləri təmir edilmişdir. 1 şəhid ailəsinin yaşadığı mənzil təmir olunmuşdur. N.Nərimanov yaşayış massivində əhalinin gediş-gəliş yolunda 2 ədəd böyük məsafəli pilləkan yığılmışdır. Ş.Xiyabanı 27 ünvanında məskunlaşmış məcburi köçkünlər üçün su xətti çəkilmiş və su hovuzu inşa edilmişdir. Azadlıq küçəsi 97 ünvanında ümumi məhəllədə 3 pilləkanda cari təmir işləri aparılmışdır. Ötən dövr ərzində sakinlərdən 8.167 manat mənzil haqqı yığılmaqla plan 100 faiz yerinə yetirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 20 oktyabr 2016-cı il tarixli sərəncamına əsasən Qazax şəhərində təmir işləri nəzərdə tutulmuş 24 ədəd çoxmənzilli binaların dam örtüyündə və fasad hissəsində təmir işləri başa çatmışdır. Vətəndaşların müraciətlərini nəzərə alaraq əlavə 20 ədəd çoxmənzilli binalarda təmir işləri aparılmışdır. Cəmi 24 binaya qarşı 42 binada işlər görülərək başa çatdırılmış, 2 binada isə son tamamlama işləri aparılır.

Bundan əlavə Qazax şəhərində 34 ədəd çoxmənzilli yaşayış binasında təmir işlərinə başlanılmış və işlər yekunlaşmışdır. Bu işlərlə əlaqədar 103 nəfər işlə təmin olunmuşdur.

2017-ci ilin 9 ayı ərzində rayonun mədəniyyət, təhsil və səhiyyə müəssisələri tərəfindən də bir sıra işlər görülmüşdür.

2017-ci ilin may ayının 15-də Qazax rayonu ilə Litva Respublikasının Trakay rayonu arasında əmakdaşlıq sazişi imzalanmışdır. Qazax rayonu ilə Litva Respublikasının Trakay rayonu arasında təhsil, mədəniyyət və tarix, idman, turizm, biznes, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin genişləndirilməsi məqsədilə Qazax rayon İcra Hakimiyyəti başçısı 09 iyun 2017-ci il tarixli 9-21/57 nömrəli Sərəncam imzalamışdır. 21 iyun tarixində Trakay rayon bələdiyyəsinin meri Edita Rudeline və nümayəndə Rudelis Henrikas Qazax rayonuna səfər etmişlər. Səfər zamanı qonaqlar Qazaxın mədəniyyəti, tarixi abidələri və görməli yerləri ilə tanış olublar.

Qazax şəhərinin mərkəzində yerləşən Ədəbiyyat Muzeyində əsaslı təmir işləri aparılmış, binanın daxilində yenidənqurma işləri görülərək ekspozisiya bölmələri yaradılmışdır. 2017-ci ilin 9 ayı ərzində rayonda Yeni il şənliyi, 2 Fevral Gənclər Günü, 8 Mart Qadınlar bayramı, Novruz bayramı, 20 Yanvar Faciəsi, 26 Fevral Xocalı Faciəsi, 31 Mart Azərbaycanlıların Soyqırım Günü, 18 Aprel Tarixi Abidələrin Mühafizəsi Günü, 9 May Faşizm üzərində Qələbə Günü, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 94 illik yubileyi, 28 May Respublika Günü, 1 İyun Uşaqları Beynəlxalq Müdafiəsi Münü, 15 İyun Milli Qurtuluş Günü, 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü, 22 iyul Milli Mətbuat Günü, 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü, 12 avqust Beynəlxalq Gənclər Günü, 15 sentyabr Bilik Günü və bir sıra başqa əlamətdar günlərlə bağlı kütləvi tədbirlər və Azərbaycanın şair və yazıçılarının yubileyləri geniş və əhatəli keçirilmişdir. Ümumilikdə ötən dövr ərzində mədəniyyət müəssisələri tərəfindən 1879 mədəni-kütləvi tədbir keçirilmişdir.

Rayon Təhsil şöbəsinin tabeliyində olan 34 tam orta, o cümlədən 1 məktəb-lisey, 6 ümumi orta, 7 ibtidai məktəb və 5 məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Cari dərs ilində ümumtəhsil məktəblərində təhsil alan 11.691 nəfər şagirdin təlim-tərbiyəsi ilə 1.713 nəfər müəllim məşğul olur. 2017-ci ilin yanvar ayında keçirilən fənn olimpiadalarının rayon turunda 309 nəfər şagird iştirak etmişdir. Zona mərhələsində yüksək yer tutmuş 1 nəfər şagird aprel ayında Bakı şəhərində keçirilmiş final mərhələsində iştirak edərək Nazirliyin Sertifikatını almışdır.

"Fövqəladə Hallar uşaqların gözü ilə" müsabiqəsinin respublika mərhələsində Qazax şəhər 5 saylı tam orta məktəbin şagirdi Bayramov Nurlan "Model Nominasiyası"nda üçüncü yerə çıxmışdır. Təhsil Nazirliyi və Fövqəladə Hallar Nazirliyinin Diplomu və qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

2017-ci ilin may ayında Qazax rayon müəllimləri Diaqnostik qiymətləndirmədə iştirak etmişlər. Qiymətləndirmədə 1392 nəfər müxtəlif fənn müəllimləri iştirak etmişdir. Onlardan yalnız 9 nəfəri 10-dan aşağı bal toplamışdır. 1029 müəllim 30 baldan, yəni 50 faizdən yuxarı bal toplamışdır. Bu iştirak edən müəllimlərin 73,9 faizini təşkil edir.

Rayonda tədrisin keyfiyyətinin artırılması məqsədilə rayon İcra Hakimiyyəti başçısının təşəbbüsü ilə rayon Təhsil şöbəsi tərəfindən ayrı-ayrı fənlər üzrə 9 nəfər fənn müəllimləri və RTŞ-nın məsul işçilərindən ibarət işçi qrupu yaradılmışdır. İşçi qrupu tərəfindən tədrisin vəziyyətini öyrənmək məqsədilə 38 məktəbdə 268 müəllimin dərsləri dinlənilmişdir. Dinləmələrin nəticəsinə görə 86 müəllim yüksək, 169 müəllim orta, 13 müəllim isə zəif qiymətləndirilmişdir.

Yekunda yüksək nəticə göstərən müəllimlərin diaqnostik qiymətləndirmə balı da nəzərə alınmaqla 2 nəfərə rayon İcra Hakimiyyəti başçısının Fəxri-Fərmanı, 7 nəfərə təşəkkür elan edilmişdir. 12 nəfər işçi qrupunun üzvü, 9 nəfər ən yüksək nəticə göstərən müəllimlərin məktəb direktorları, Təhsil şöbəsinin müdiri və aparıcı məsləhətçisi İcra Hakimiyyəti başçısı tərəfindən mükafatlandırılmışdır.

2017-ci ilin mart ayında məktəblilərinin yaz tətilində "Ölkəmizi tanıyaq" tur-aksiyasında rayonun IX-XI sinif şagirdlərindən 40 nəfəri Qəbələ-Şəki-Zaqatala bölgəsində olmuşdur. Tur-aksiya zamanı keçirilən bilik yarışmasında rayonumuzun komandası yüksək nəticə göstərərək birinci yerə layiq görülmüşdür. Həmin şagirdlər Fəxri Fərmanla mükafatlandırılmışlar.

2016-2017-ci tədris ilində rayon üzrə 777 nəfər məzundan 432 nəfəri ali məktəblərə qəbul imtahanında iştirak etmiş və 264 nəfər ali təhsil müəssisələrinə qəbul olmuşdur. Bunlardan da 14 nəfər 600-dən yuxarı, 58 nəfər 500-dən yuxarı bal toplamışlar. Məzunların qəbulolma göstəriciləri 61% olmuşdur.

Abbasbəyli kəndində 20 şagird yerlik modul tipli yeni ibtidai məktəb binasının tikintisi başa çataraq istifadəyə verilmişdir. Qazax şəhər Mehdi Hüseyn adına məktəb-liseydə təmir işləri aparılmışdır.

Bakı Dövlət Universitetinin Qazax filialında 13 ixtisas üzrə 689 tələbə təhsil alır. Tələbələrdən 611-i əyani, 78-i qiyabi olmaqla respublikamızın 54 rayonunu təmsil edirlər. Filialın yeni tədris korpusunun-kampus tələbə şəhərciyinin tikilib istifadəyə verilməsi üçün 6 hektar torpaq sahəsi ayrılmış və müvafiq sənədləşmə işləri aparılmışdır. Yaxın müddətdə təməlqoyma mərasiminin keçirilməsi planlaşdırılır.

Rayonda 25 körpələr evi-uşaq bağçası fəaliyyət göstərir ki, bunlardan 6-sı şəhərdə, 19-u isə kəndlərdə yerləşir.

Fəaliyyəti dayandırılmış Aşağı Əskipara kənd körpələr evi-uşaq bağçası 25 yanvar 2017-ci il tarixindən Qazaxbəyli kəndində məcburi köçkünlər üçün salınmış qəsəbədə yeni tikilmiş, müasir tələblərə cavab verən binada yenidən fəaliyyətə başlamışdır.

Dövlət Proqramına uyğun olaraq Qazax şəhərində tikintisi nəzərdə tutulmuş 100 yerlik körpələr evi-uşaq bağçasının tikintisində son tamamlama işləri aparılır. Bundan əlavə "HGC GROUP" MMC tərəfindən Daş Salahlı kəndində 2 və 3 saylı uşaq bağçalarında əsaslı təmir və yenidənqurma işlərində son tamamlama işləri aparılır. Kosalar kəndində 2 və 3 saylı körpələr evi-uşaq bağçaları əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Hal-hazırda Xanlıqlar kənd körpələr evi-uşaq bağçasında əsaslı təmir işləri davam etdirilir, yaxın günlərdə istifadəyə veriləcəkdir.

Qazax şəhərində 2, 3, 4 və 6 saylı körpələr evi-uşaq bağçaları istilik sistemi ilə təchiz olunmuşdur.

Bağçalar "Ərzaq Məhsullarının Təchizatı və Təminatı" ASC tərəfindən ayda iki dəfə vaxtlı-vaxtında ərzaqla təmin olunurlar və buna rayon İcra Hakimiyyəti tərəfindən daim nəzarət olunur.

Fövqəladə Hallar Nazirliyinin yerli nümayəndəliyi ilə birlikdə rayonun körpələr evi-uşaq bağçalarında və təhsil müəssisələrində yanğın təhlükəsizliyi ilə bağlı tədbirlər planı hazırlanmış, işçilərin təlimatlandırma jurnalı tutulmuş, təlimatlar verilmiş, yanğının qarşısını almaq üçün məsul şəxslər təyin olunmuş, qruplar yaradılmış və xəbərverici lövhələr hazırlanıb asılmışdır.

Qazax rayon Mərkəzi Xəstəxanasının 30 çarpayılıq Uşaq Xəstəxanası, 30 çarpayılıq Doğum evi, 1 Təcili Yardım stansiyası, 3 Poliklinika, 100 çarpayılıq Ruhi xəstəxana, 16 kənd həkim məntəqəsi və 17 kənd tibb məntəqəsi fəaliyyət göstərir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 374s saylı sərəncamına uyğun olaraq köhnə Mərkəzi rayon Xəstəxanasının yerində yeni 145 çarpayılıq Mərkəzi rayon Xəstəxana Kompleksinin tikintisi sürətlə davam etdirilir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə TÜRKKIZILAYI-nın əməkdaşlığı sayəsində Abbasbəyli kəndində sahəsi 40 kvadratmetr olan 2 otaqlı tibb məntəqəsi tikilərək istifadəyə verilmişdir.

Hesabat dövründə rayonun səhiyyə müəssisələrinə ambulator gəlişlərin sayı 112.317 nəfər olmuş, 605 nəfər rentgen-flüoroqrafiya müayinəsindən keçirilmiş, 357 nəfər əməliyyat olunmuş, 912 nəfər laborator müayinədən keçirilmişdir. Rayon Mərkəzi Xəstəxanasında 2.858 nəfər şəkərli diabet xəstəsi, 257 nəfər vərəmli xəstə, 709 nəfər onkoloji xəstə dispanser qeydiyyatdadır.

Fevral ayının 15-dən etibarən Dövlət Başçısı İlham Əliyev cənablarının tapşırığına əsasən ölkəmizdə əhalinin tibbi müayinədən keçirilməsi aksiyası Qazax rayonunda da uğurla həyata keçirilmişdir. 66.673 nəfər əhali tibbi müayinədən keçirilmiş, 65.191 nəfər sağlam hesab edilmiş, 1.026 nəfər ambulator müalicəyə, 224 nəfər stasionar müalicəyə, 107 nəfər isə Bakı şəhərində əlavə müayinə və müalicəyə göndərilmişdir.

Şəkərli diabet, onkoloji və vərəmli xəstələrin aşkarlanaraq müalicəyə cəlb edilməsi gücləndirilmiş, həmin xəstələr müntəzəm olaraq pulsuz dərman preparatları ilə təmin edilirlər. Rayon üzrə 1750 xəstəyə qanda şəkərin miqdarını təyin edən "Qlukometr" aparatı paylanılmışdır.

Aprel ayının 22-də Səhiyyə Nazirliyinin tövsiyəsi ilə rayonumuzda kütləvi qanvermə aksiyası keçirilmişdir. Aksiyada 70 litrə yaxın qan tədarük edilərək Respublika Qan Bankına verilmişdir.

Rayonumuzda respublika tabeçiliyində olan Müalicə Diaqnostika Mərkəzi və 113 xidməti fəaliyyət göstərir.

Qazax Müalicə Diaqnostika Mərkəzinə 9 ay ərzində 18.111 ambulator gəliş olmuş, mərkəzdə 93.368 laboratoriya müayinələri olunmuş, 679 cərrahi əməliyyat aparılmış və hemodializ şöbəsinə 26 nəfər xəstə daxil olmuşdur. Onlardan 6 nəfəri köçürülmüş, 2 nəfəri sağalmış, 15 nəfəri vəfat etmişdir. Xəstələr üzərində 6.220 hemodializ seans aparılmışdır.

Rayon Gənclər və İdman İdarəsi tərəfindən 2017-ci ilin 9 ayında gənclərlə iş sahəsi üzrə 15, bədən tərbiyəsi və idman sahəsi üzrə 23 tədbir keçirilmişdir. Keçirilən tədbirlərdə gənclərin bütün təbəqələri təmsil olunmaqla 3.323 nəfər yeniyetmə və gənc iştirak etmişdir. Hesabat dövründə beynəlxalq yarışlarda 31, respublika yarışlarında 67 nəfər idmançımız mükafata layiq yerlər tutmuşdur.

Məhəmmədəli Pəhləvan adına güləş zalında əsaslı təmir işləri başa çatmış və istifadəyə verilmişdir.

2017-ci ilin 9 ayı ərzində rayon üzrə əsas kapitala yönəldilən investisiyaların həcmi 12.524.300 manat, ümumi məhsul buraxılışının həcmi 124.060.000 manat olmuşdur ki, bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz çoxdur. Sənaye məhsulunun ümumi həcmi 25.558.000 manat keçən ilə nisbətən 2,2 dəfə çox, kənd təsərrüfatı məhsullarının həcmi 50.530.000 manat 2016-cı ilin müvafiq dövrünə nisbətən 7 faiz çox olmuşdur. Rayon üzrə adambaşına düşən məhsul buraxılışı 1.295 manat, orta aylıq əmək haqqı 269,3 manat olmuşdur.

Tikinti-quraşdırma işlərinin həcmi 9.206.100 manat olmuşdur. Əhali tərəfindən ümumi dəyəri 3.500.000 manat olan 249 yaşayış evi tikilib istifadəyə verilmişdir.

"Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ilə əlaqədar Qazax rayonunda davamlı surətdə yeni iş yerləri açılır. 2017-ci ilin ötən dövrü ərzində 10 yeni müəssisə yaradılmış, 1.350-i daimi olmaqla 1.391 yeni iş yeri açılmışdır.

*(Ardı səh.3-də)*

# 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun

# HESABAT MƏRUZƏSİ

*(Əvvəli səh.2-də)*

2017-ci ilin 9 ayı ərzində Qazax Məşğulluq Mərkəzinə 22 müəssisədən 364 boş iş yeri təqdim edilmiş, müraciət etmiş 2.062 nəfər vətəndaşdan 1.574 nəfəri iş axtaran kimi qeydiyyata alınmış, 434 nəfər münasib işlə təmin olunmuş, 164 nəfərə işsizlik statusu verilmiş və 187 nəfərə müavinat təyinatı aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07 aprel 2016-cı il tarixli "Əhalinin özünüməşğulluğunun təmin edilməsi" ilə bağlı sərəncamının icrası ilə əlaqədar rayonumuzda 14 ailə özünüməşğulluq lahiyəsinə cəlb edilmiş, 11 ailə mal-materiallarla təmin olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı əsasında "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunmuş "ASAN qatar" konsepsiyası reallaşdırılıb. Fevral ayının 1-dən etibarən ilk olaraq Səyyar "ASAN qatar" Qazax rayonunda sakinlərə 15 gün müddətində səyyar formada xidmət göstərmişdir. 15 gün ərzində xidmətlərdən 4531 nəfər vətəndaş yararlanmışdır. Bundan əlavə Səyyar Asan Xidmət iyun ayında da 15 gün müddətində Qazax rayonunda sakinlərə xidmət göstərmişdir. Bu xidmətlərdən 2443 nəfər vətəndaş yararlanmışdır.

Rayonda "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq təmir-tikinti, abadlıq, bərpa, quruculuq işləri ötən ildə olduğu kimi, 2017-ci ildə də davam etdirilmişdir.

Qazax şəhərinin mərkəzində yerləşən "Fəxri Qazaxlılar" parkında yenidənqurma işləri aparılmış, fəvvarə kompleksləri yenidən qurulmuş, parkın ərazisinə tamet döşənmiş, bardürlar düzülmüş, yeni işıqlandırma sistemi qurulmuş, yeni oturacaqlar qoyulmuş və qazon otu, dekorativ ağac və gül kolları əkilmişdir. Bu işlərin davamı olaraq Şəhidlər Xiyabanı küçəsində, Cümə məscidinin qarşısında abadlıq işləri davam etdirilərək əraziyə tamet döşənmiş, bardür düzülmüş, işıq sistemi quraşdırılmış və yaşıllıqlar salınmışdır. Şəhidlərin abidə kompleksində tamamilə yenidənqurma işləri davam etdirilir.

Səməd Vurğun adına parkda yenidənqurma işləri yekunlaşmış, parkın 1922 kv.m sahəsinə yeni tamet döşənmiş, 119 p/m uzunluğunda yeni bardürlər düzülmüş, yaşıllıqlar salınmış və yeni işıqlandırma sistemi quraşdırılmışdır.

Qazax şəhəri H.Əliyev prospektində və digər küçələrdə 3890 p/m uzunluğunda yeni bardür düzülmüş, əraziyə tamet döşənmiş, bu istiqamətdə işlər davam edir.

Heydər Əliyev Mərkəzinin dam örtüyü, pilləkan qəfəsinin üst hissəsi təmir işləri aparılmış, hazırda binanın daxilində təmir işləri davam etdirilir.

Qazax şəhərinin girişində, Ağstafa rayonu ilə sərhəddə yenidənqurma və abadlıq işləri başa çatdırılmış, əvvəl qoyulmuş "At heykəli" götürülərək yeni daha əzəmətli "At heykəli" qoyulmuşdur.

Qazax şəhəri ərazisində hərbi şəhərcikdə Şəhidlərin xatirəsinə 1 bulaq, Milli Qəhrəman Firuddin Şamoyevin xatirəsinə 1 bulaq tikilib istifadəyə verilmişdir. 6 bulaq yenidən qurularaq müasir görkəmə salınmışdır. Bu işlərin davamı olaraq rayonun Qazaxbəyli kəndində Milli Qəhrəman Alı Mustafayevin adına yeni bulaq kompleksi tikilərək istifadəyə verilmişdir.

"Azərxalça"ASC tərəfindən Qazax şəhərində 160 iş yerlik Xalça müəssisəsinin tikintisi sürətlə davam etdirilir.

İkinci Şıxlı kəndində "Sınıq Körpü" Buraxılış Məntəqəsində yenidənqurma və abadlıq işləri aparılmışdır.

Yuxarı Salahlı kəndində Səməd Vurğunun Ev Muzeyində əsaslı təmir işləri davam etdirilir.

Qızıl Hacılı kəndinin sakinləri üçün Nazirlər Kabinetinin 3 mart 2015-ci il tarixli 77s saylı Sərəncamı ilə 19,4 hektar torpaq sahəsinin təyinatı dəyişdirilmiş, 78 ailəyə fərdi yaşayış evlərinin bütün infrastrukturlarla birlikdə tikilməsi məqsədilə sənədləşmə işləri aparılır.

Qazax şəhərinin su-kanalizasiya sisteminin yenidən qurulması işlərinə başlanılacaqdır.

"Körpü-Bina-Tikinti" MMC tərəfindən uzunluğu 2,5 km olan Qazax-Hüseynbəyli avtomobil yolunun və uzunluğu 2,65 km olan Kommuna kəndini Qazax-Quşçu Ayrım avtomobil yolu ilə birləşdirən avtomobil yolunun tikintisi başa çatdırılmışdır.

"Azəravtoyol" ASC tərəfindən Bakı-Tbilisi avtomobil yolunu Qazax-Əskipara yolu ilə birləşdirən, uzunluğu 6 km olan 7705 nəfər əhalinin yaşadığı Çaylı kəndinin içərisindən keçən, avtomobil yolunun tikintisi işləri yekunlaşmaq üzrədir.

Hazırda uzunluğu 7 km olan strateji əhəmiyyətli Cəfərli kəndini Qazax-Uzuntala avtomobil yolu ilə birləşdirən yolun tikintisi üçün hazırlıq işləri görülür.

Rayonun kənd yaşayış məntəqələrindən 104 km uzunluğunda kənddaxili yollara qum-çınqıl döşənmiş, bu istiqamətdə işlər davam edir.

Məzəm və Quşçu Ayrım kənd sakinlərinin rayon mərkəzinə təhlükəsiz gediş və gəlişini təmin etmək məqsədilə Qazax-Quşçu Ayrım avtomobil yolunun Alpout kəndi ilə Quşçu Ayrım kəndini birləşdirən hissəsində alternativ olaraq ikinci yolun çəkilişi işləri davam edir.

Rayonun Quşçu Ayrım kəndində 4 ədəd, Fərəhli kəndində 3 ədəd, Məzəm və Abbasbəyli kəndlərinin hər birində 1 ədəd olmaqla, cəmi 9 ədəd sığınacaq tikilmişdir. Məzəm kəndində əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə 576 metr uzunluğunda istinad divarı tikilir.

"Mina təhlükəsizliyi" ilə bağlı Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentleyi (ANAMA) tərəfindən rayonumuzda 2017-ci ilin 9 ayı ərzində 6 ədəd partlamamış hərbi sursat zərərsizləşdirilmişdir.

Rayonun Ermənistanla təmasda yerləşən Ağköynək, Daş Salahlı, Xanlıqlar, Cəfərli, Bala Cəfərli, Məzəm, Quşçu Ayrım, Abbasbəyli, Aslanbəyli, Qaymaqlı, Kəmərli, İkinci Şıxlı və Fərəhli kəndlərində Polis məntəqələri tikilmişdir.

Çaylı kəndindəki Şəhidlər Xiyabanında da əsaslı təmir işlərinə başlanılmışdır. Çaylı və Kommuna kəndlərindən olan şəhidlərin xatirəsinə Çaylı və Kommuna kəndlərini içməli su ilə təmin edən kəhriz quyularında "Qərb-Resurs" Vətəndaş Cəmiyyətinin İnkişafına Dəstək İctimai Birliyi tərəfindən 13 tonluq hovuzun tikintisinə başlanılmışdır və işlər yekunlaşmaq üzrədir.

Daş Salahlı kəndinin abadlaşması istiqamətində genişmiqyaslı tikinti, quruculuq və abadlıq işlərinə başlanılmışdır. Böyük Vətən Müharibəsində həlak olanların xatirəsinə tikilmiş abidə kompleksində əsaslı təmir işləri başa çatmaq üzrədir.

Daş Salahlı kəndində içməli su xəttinin çəkilişinə başlanılmışdır.

Rayonun Aslanbəyli, Abbasbəyli və Xanlıqlar kəndlərində nəzarət buraxılış məntəqələrinin tikintisi başa çatmaq üzrədir.

Hər birinin illik istehsal gücü 50 min ton olan "Mətanət A" şirkəti tərəfindən Daş Salahlı kəndində və "Carçıoğlu" şirkəti tərəfindən Xanlıqlar kəndində 2 yeni Əhəng zavodunun tikintisi davam edir. Həmin zavodlarda 450-yə yaxın yeni iş yerinin açılması nəzərdə tutulmuşdur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ və şəhid ailələri üçün 2014-cü ilin dekabr ayında tikintisinə başlanılmış 14 fərdi yaşayış evlərindən 8-i istifadəyə verilmiş, 6-da işlər yekunlaşmış, 2017-ci ildə isə daha 6 yaşayış evinin tikintisinə başlanılmışdır.

2017-cı ilin 9 ayı ərzində Qazax rayonunda kənd təsərrüfatı məhsullarının artırılması məqsədilə də bir sıra səmərəli işlər görülmüş və müsbət nəticələr əldə olunmuşdur.

2016-cı ildə qazılması nəzərdə tutulmuş 10 subartezian quyusundan Çaylı kəndində 3 ədəd, Daş Salahlı kəndində 3 ədəd, Orta Salahlı, Xanlıqlar, Kosalar və Canalı kəndlərinin hər birində 1 ədəd, cəmi 10 ədəd subartezian quyusu qazılaraq istifadəyə verilmişdir. 2017-ci ildə daha 6 ədəd subartezian quyusunun qazılması nəzərdə tutulmuşdur ki, bunlardan Alpout kəndində 1 ədəd subartezian quyusunun qazıntısına başlanılmışdır.

Kənd təsərrüfatı bitkilərini normal suvarma suyu ilə təmin etmək məqsədi ilə Qazax Suvarma Sistemləri İdarəsi və Melioservis İdarəsi tərəfindən 2017-ci ilin 9 ayı ərzində rayonun müxtəlif yaşayış məntəqələrində 78.700 p/m arx və kanallarda lildən və kol-kosdan təmizləmə işləri aparılmışdır. 2017-ci ilin 9 ayı ərzində 82.743 min kubmetr faktiki olaraq su götürülmüş və aidiyyəti üzrə su istehlakçılarına verilmişdir. 2017-ci ilin payız suvarmasını və 2018-ci təsərrüfat ilinə hazırlıq məqsədilə su təsərrüfatı sahələrində lildən və kol-kosdan təmizləmə, hidrotexniki qurğuların və hidropostların təmiri işləri davam etdirilir. Rayonda 6 Sudan İstifadə Birlikləri fəaliyyət göstərir. Bu birliklərdə 42 nəfərdən ibarət işçi heyəti vardır və suvarma suyunun itkisiz və səmərəli istifadə olunmasına ciddi nəzarət olunur.

2017-ci ilin məhsulu üçün 2.750,6 hektar arpa, 8.277,7 hektar buğda olmaqla, cəmi 11.028,6 hektar taxıl becərilmişdir. 2017-ci ildə cəmi 36.469 ton məhsul əldə olunmuşdur ki, bunun da 29.840 tonu buğda, 6.629 tonu isə arpadır. Bir hektar sahədən 36,00 sentner buğda, 24,10 sentner arpa götürülmüşdür. Ümumi məhsuldarlıq 33,03 sentner olmuşdur. Keçən illə müqayisədə cəmi taxıl əkini 3.219,8 hektar, götürülmüş məhsul isə 12.660,8 ton, orta məhsuldarlıq isə 2,63 sentner çox olmuşdur. 2018-ci ildə 12.266 hektar sahədə əkilməsi proqnozlaşdırılan payızlıq taxıl sahəsindən 6.109 hektarında şum aparılmışdır. 2017-ci ildə 809 hektar kartof, 523 hektar şəkər çuğunduru, 504 hektar qarğıdalı, 34 hektar vələmir, 62,5 hektar günəbaxan, 483,3 hektar tərəvəz, 85,92 hektar süpürgə, 3.336 hektar yonca, 5,6 hektar darı, 52 hektar paxlalılar, 50 hektar tütün, 31,4 hektar bostan bitkiləri əkilmişdir. 2017-ci ilin yazında 50,5 hektar yeni fındıq bağı salınmış və cəmi fındıq bağları 222,83 hektar olmuşdur ki, bunun da 136 hektarı məhsuldar bağlardır. Bu il 460 ton fındıq məhsulu istehsal olunmuşdur. Ümumi meyvə bağları 1.264 hektar, üzüm bağı 325 hektardır. Bu günə kimi 321 hektar üzüm bağından 1.250 ton məhsul yığılmışdır. Əkin sahələrindən 20.570 ton kartof, 7.598 ton pomidor və xiyar, 502 ton qarpız və yemiş, 612 ton baş soğan, 2.726 ton qarğıdalı, 1.300 ton kələm, 1.040 ton badımcan, 900 ton bibər, 162 ton yerkökü, 10.011 ton yonca, 88,4 ton vələmir, 25 ton sarımsaq, 585 ton tərəvəz lobyası, noxud və dənlik lobya, 5,6 ton darı, 185 ton göyərti, sarqo, mətbəx çuğunduru istehsal olunmuşdur.

Bu günədək 46 ton quru tütün məhsulu istehsal edilərək Şəki şəhərindəki "İlham M" MMC-yə təhvil verilmişdir. Tütün istehsalı davam edir.

Əkilmiş 523 hektar şəkər çuğunduru sahəsinin 46 hektarından 683 ton şəkər çuğunduru çıxarılaraq İmişli Şəkər Zavoduna təhvil verilmişdir.

Bu il rayonumuzda 4.623 kq barama istehsal edilmişdir ki, bu isə keçən ildən 3.123 kq və ya 3,1 dəfə çoxdur.

Son zamanlar rayonumuzda arıçılığın inkişafı da diqqəti cəlb edir. Ötən ilin müvafiq dövründə rayon üzrə 325 təsərrüfatda 2.216 arı ailəsi olduğu halda, bu gün 342 təsərrüfatda 2.867 arı ailəsi vardır.

Rayonun Ağköynək kəndində 1 hektar ərazidə tərəvəzlərin yetişdirilməsi məqsədilə yeni istixana kompleksi tikilərək istifadəyə verilmiş, hazırda isə Ağköynək və Çaylı kəndlərinin hər birində 1 hektar ərazidə istixana kompleksinin tikintisinə başlanılmışdır.

"Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahələrinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğdaçəltik əkininə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları"na uyğun olaraq 8.433 nəfər istehsalçıya 988.599,20 manat subsidiya verilmişdir ki, bu da ötən ildən 222.418 manat çoxdur.

Hesabat dövründə bitkiçilik sahəsində olduğu kimi, heyvandarlıq sahəsində də uğurlar əldə olunmuşdur. Süni yolla mayalandırılmış heyvanlardan 139 baş bala alınmış və həmin balalara görə 13.900 manat subsidiya verilmişdir. 283 baş iribuynuzlu heyvanlarda süni mayalanma aparılmışdır. Heyvandarlıq sahəsində zoobaytar tədbirlərinin planlı surətdə həyata keçirilməsinin nəticəsidir ki, məhsul istehsalı dinamik surətdə artmaqdadır. Belə ki, ət istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 218,8 ton artaraq 4.365,5 ton, süd istehsalı 1.376,3 ton artaraq 24.245,5 ton, yumurta istehsalı 409.000 ədəd artaraq 9.423.000 ədəd olmuşdur.

Qazax rayon Baytarlıq idarəsi tərəfindən 2017-ci ilin 9 ayı ərzində epizootik, müalicə-profilaktik tədbirlər planına uyğun olaraq 30.446 baş iribuynuzlu, 134.664 baş xırdabuynuzlu, 1.084 baş təkdırnaqlılar qarayara, 29.840 baş iribuynuzlu, 57.661 baş xırdabuynuzlu heyvanlar dabax, 5.840 baş sahibli ev itləri quduzluq xəstəliyinə qarşı, 27.395 baş xırdabuynuzlular Bruseliyoza qarşı Rev-1 ilə peyvənd edilmişdir. Həmçinin 193.916 baş yetkin ev quşları taun xəstəliyinə qarşı "La Sota" ilə, 202.421 baş ev quşları taun xəstəliyinə qarşı "H" vaksini ilə peyvənd olunmuşlar.

2017-ci ilin 9 ayı ərzində rayon İcra Hakimiyyətinə 1261 müraciət daxil olmuşdur ki, bunlardan 61-i minnətdarlıq və təşəkkürdür. Müraciətlərdən 218-i Prezident Administrasiyasına (17,3%), bundan - 5-i təşəkkür, 8-i Milli Məclisə (0,6%), 8-i Nazirlər Kabinetinə (0,6%), 37-i respublikanın digər təşkilatlarına (2,9%), 290-ı isə bilavasitə İcra Hakimiyyətinə ünvanlanan müraciətlərdir (78,6%). 2016-cı ilin 9 ayı ilə müqayisədə Prezident Administrasiyasına daxil olmuş müraciətlər azalmış, bilavasitə İcra Hakimiyyətinə daxil olmuş müraciətlər isə artmışdır.

Rayon İcra Hakimiyyəti başçısının aparatına daxil olan müraciətlərin təhlili göstərir ki, müraciətlərin 21,5 faizi mərkəzi orqanlardan, 78,5 faizi isə vətəndaşlar tərəfindən daxil olmuşdur. Keçən ilin müvafiq dövründə isə müraciətlərin 27,3 faizi mərkəzi orqanlardan, 72,7 faizi isə vətəndaşlar tərəfindən daxil olmuşdur. Daxil olan müraciətlərin 34,7 faizi müsbət həll olunmuş, 9,1 faizi qismən həll olunmuş, 0,4 faizi əsassız sayılmış, 51 faizinə müvafiq izahat verilmiş, 1,6 faizi baxılmaq üçün aidiyyəti təşkilatlara göndərilmiş, 3,2 faizi isə icradadır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə müsbət həll olunmuş müraciətlər 14,3 faiz artmışdır.

2016-cı ilin ilk 9 ayı ərzində Qazax rayon İcra Hakimiyyəti başçısının aparatında keçirdiyi qəbullar zamanı 1722 nəfər, 2017-ci ilin ilk 9 ayı ərzində isə 1625 nəfər vətəndaş müxtəlif məsələlər üzrə müraciət etmişdir. Müraciətlərdən 129-u torpaqla əlaqədar məsələlər, 130-u mənzillə təmin olunmalarına, 104-ü evinin təmir olunmasına köməklik, 333-ü işlə əlaqədar, 87-i ünvanlı sosial yardımla təmin olunmalarına köməklik, 38-i suvarma məsələsi, 26-ı görülmüş işlərin nəticəsi ilə əlaqədar minnətdarlıq və təşəkkürünü bildirmiş, 778-i isə digər məsələlərlə əlaqədar olmuşdur.

2017-ci ilin 9 ayı ərzində Qazax rayon İcra Hakimiyyəti başçısı tərəfindən kəndlər və şəhərdə 37 səyyar görüş keçirilmişdir. Həmin görüşlərdə iştirak edənlərin sayı 10.839 nəfər, müraciət edənlərin sayı 428 nəfər olmaqla 212 təklif irəli sürülmüşdür. Qaldırılan problemlər və təkliflərdən 120-i (56,6%) icra edilmiş, 14 (6,6%) məsələ üzrə işlər davam edir, 78 (36,8%) təklif ilə əlaqədar isə aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılmışdır.

Bundan sonra da Dövlət Proqramının icra olunmasında hər birimiz daha məsuliyyətlə çalışmalı, verilən tapşırıqların layiqincə yerinə yetirilməsində fəal iştirak etməliyik. Bu yolda hər birinizə uğurlar arzulayıram.

xxx

Hesabat yığıncağında RİHB aparatında şöbə müdiri Adil Vəliyev, rayon Təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı, Elektrik şəbəkəsinin rəisi Elşad Məmmədov, Şəmkir RQİİ-nin rəis müavini İlkin Nəsibov və "Qazax Avtovağzal" ASC-nin icraçı direktoru Eyvaz Quliyev çıxış edərək hesabat dövründə görülmüş işlər və qarşıda duran vəzifələr haqqında ətraflı məlumat vermişlər.

Sonda rayonun sosial-iqtisadi və ictimai həyatında fəal iştirak etdiklərinə görə Qazax şəhər sakini Nəsibov Elman Nəsib oğlu və Yuxarı Salahlı kənd sakini Mustafayev Osman Mirzə oğluna rayon İcra Hakimiyyəti başçısının Fəxri Fərmanı və qiymətli hədiyyələr təqdim olunmuşdur.

Hesabat məruzəsi ixtisarla dərc edilmişdir.

# Tələbkarlıq və nəzarət yüksək olanda



**Qazax rayonunun mərkəzində, eləcə də kəndlərində geniş tikinti-quruculuq işləri aparılır. Bu quruculuq işləri yüksək tələbkarlıq və nəzarət altında həyata keçirilir. Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov mütəmadi olaraq tikinti aparılan yerlərə baş çəkir, öz tapşırıq və tövsiyələrini verir.**

Rayon rəhbərliyi Daş Salahlı, Çaylı, Kommuna və Xanlıqlar kəndlərində həyata keçirilən tikinti-quruculuq işlərinin gedişi ilə tanış olmaq üçün həmin kəndlərdə olmuşdur.

"Mətanət A" şirkəti tərəfindən rayonumuzda tikilən Əhəng zavodunun inşası ilə tanış olan İcra Başçısı işlərin sürətinin daha da artırılmasını tapşırmış və əlavə bir sıra göstərişlər vermişdir. Rayon rəhbərinə məlumat verilmişdir ki, zavodda son tamamlanma işləri aparılır, yaxın günlərdə açılışa tam hazır olacaqdır.





Kəndin mərkəzində əsaslı şəkildə yenidən qurulmuş Böyük Vətən Müharibəsində həlak olanların xatirə abidə-kompleksinə gələn İcra Başçısı burada görülən işlərdən razılığını bldirmişdir. Son tamamlanma işləri aparılan abidə-kompleksinə sanki yeni bir həyat verilmişdir.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov burada abidə ətrafına toplaşmış sakinlərlə görüşmüşdür. Sakinlərdən Cəfər Göyüşov, Qəhrəman İsmiyev, Qulu Quluyev və başqaları çıxış edərək Daş Salahlı kəndində həyata keçirilən tikinti-quruculuq işlərinə, abidə-kompleksin əsaslı şəkildə yenidən bərpa edilməsinə görə Ölkə Başçısı İlham Əliyevə, rayon rəhbərliyinə öz dərin minnətdarlıqlarını bildirmişlər.

Görüşdə iştirak edən Böyük Vətən Müharibəsi, Əmək və Silahlı Qüvvələr Veteranı İctimai Birliyinin Qazax rayon şöbəsinin sədri Xanqulu Süleymanov bərpa edilən abidə-kompleksin müharibə veteranlarına, ağsaqqallara göstərilən ehtiramın ən parlaq nümunəsi olduğunu söyləmiş və yüksək qiymətləndirmişdir.

Sonra Rəcəb Babaşov kənddə əsaslı şəkildə təmir olunmuş 2 və 3 saylı körpələr evi-uşaq bağçalarının binaları ilə tanış olmuşdur. Burada əsaslı şəkildə aparılmış təmir işləri demək olar ki, yekunlaşmışdır. Görülən işlərlə tanış olan rayon rəhbərliyi bağça binasını yüksək qiymətləndirmişdir.

Sonra rayon rəhbərliyi Çaylı kəndinə çəkilən asfalt yolda görülən işlərin gedişi ilə tanış olmuşdur. İcra başçısına məlumat verilmişdir ki, 6 km uzunluğu olan bu yolda son tamamlanma işləri görülür. Yaxın günlərdə əhalinin istifadəsinə veriləcəkdir.

Kommuna kəndinə çəkilmiş asfalt yolda aparılan işlərlə tanış olan rayon rəhbəri razılığını bildirmişdir. Qeyd etmişdir ki, 2,65 kilometrlik uzunluğunda olan bu yoldan səmərəli istifadə olunmalı və hamılıqla nəzarət edilib qorunmalıdır.

Xanlıqlar kəndindəki körpələr evi-uşaq bağçası əsaslı şəkildə yenidən qurulur. Aparılan işlərlə tanış olan İcra Başçısı burada körpələr üçün yüksək şəraitin yaradılmasından ötrü lazımi tapşırıq və göstərişlərini vermişdir. Daha sonra rayon rəhbərliyi kənd icra nümayəndəliyi üçün təmir edilən iş otaqlarında görülən işlərlə də maraqlanmışdır.




Rayon rəhbərliyi şəhərdə yeni inşa olunmuş şəhər 1 saylı körpələr evi-uşaq bağçasına da baxmışdır. Açılışa hazır olan binada körpələrin təlim-tərbiyə almaları üçün yaradılmış şərait olduqca yüksək səviyyədədir.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Şəhidlər Xiyabanında, rayon mərkəzi xəstəxanasının, "Azərxalça" ASC Qazax filialının yeni binasında, hərbi şəhərcikdəki və 60 ailəlik beşmərtəbəli binalarda aparılan tikinti-quruculuq, bərpa və təmir işləri ilə də maraqlanmışdır. Görülən işləri yüksək qiymətləndirərək müvafiq tapşırıqlarını vermişdir.

**Elçin İSMAYIL**



*Rayonumuzda ötən son 1 il yarım müddət ərzində bütün sahələrlə yanaşı, məktəbəqədər yaşlı körpələrin sağlam böyümələrinə, məktəbəqədər tərbiyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə də böyük diqqət yetirilir. Bu məqsədlə onların hərtərəfli və düzgün böyüməsi, tərbiyə olunması üçün yeni uşaq bağçaları tikilir, müasir inventar və avadanlıqlarla təmin olunur.*

# Kosalar kəndində yeni bağça binaları istifadəyə verilmişdir



Kosalar kəndində əsaslı şəkildə təmir olunan 30 yerlik 2 saylı və 25 yerlik 3 saylı körpələr evi-uşaq bağçalarının açılışı olmuşdur. Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov açılış mərasimində iştirak etmək üçün Kosalar kəndinə gəlmişdir.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov açılış mərasimində çıxış edərək körpə fidanları, onların valideynlərini və müəllimləri səmimi qəlbdən təbrik etmiş, göz aydınlığı vermişdir. Qeyd etmişdir ki, Azərbaycanda uşaqlara diqqət və onların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı həyata keçirilən siyasətin əsasını ulu öndər Heydər Əliyev qoymuşdur. Həmin siyasəti dövlətimizin başçısı İlham Əliyev uğurla davam etdirərək, bu istiqamətdə çox mühüm sənədlər imzalamış, layihələrin həyata keçirilməsi ilə bağlı müvafiq tapşırıqlarını vermişdir. Bildirmişdir ki, bu sahədə Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən hərtərəfli və məqsədyönlü işlər görülür. Gələcəyimiz olan uşaqların sağlam və xoşbəxt böyüməsi üçün bu gün dövlət tərəfindən bütün zəruri tədbirlər görülür. Bunun nəticəsidir ki, hər il respublikamızda müasir körpələr evi-uşaq bağçalarının tikintisini, həmçinin mövcudlarının əsaslı şəkildə yenidən qurulmasını əhatə edir. Bu cür layihələrin icra edilməsi, ümumilikdə, uşaqların sosial müdafiəsinin gücləndirilməsində, onların bilikli, savadlı və intellektual şəxsiyyət kimi formalaşmasında vacib rol oynayır.

Kosalar kəndində açılışına toplaşdığımız uşaq bağçaları da göstərilən həmin diqqət və qayğının nəticəsidir. Hazırda rayonumuzda digər sahələrlə yanaşı, yeni uşaq bağçalarının əsaslı təmiri və tikintisi daha da genişləndirilmişdir. Qazax şəhərində 100 yerlik 1 saylı uşaq bağçasının yeni binasının tikintisi, Daş Salahlı kəndində 2 və 3 saylı uşaq bağçalarının binalarında aparılan yenidənqurma və əsaslı təmir işləri artıq başa çatdırılmışdır. Xanlıqlar kəndində 55 yerlik uşaq bağçasında əsaslı təmir işləri sürətlə aparılır.

Fəaliyyətə başladığım ilk gündən körpə balaların daha yaxşı şəraitdə təlim-tərbiyə almaları üçün əlimdən gələni etmişəm. Çalışmışam ki, bu gül balalar daha müasir standartlara cavab verən bağçalarda tərbiyə olunsunlar. Daş Salahlı və Xanlıqlar kəndlərində, eləcə də açılışını etdiyimiz yeni bağça binalarının əsaslı şəkildə yenidən qurulması buna əyani sübutdur.



Bundan sonra çalışacağam ki, digər kəndlərdə olan körpələr evi-uşaq bağçaları da əsaslı şəkildə yenidən qurulsun.

Kənd sakinlərindən Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi Barat Vüsal, AYB-nin üzvü, şair Cavanşir Rüstəm, Rəfiqə Məmmədova, valideynlərdən Könül Süleymanova və Dilşad Mustafayeva çıxış edərək böyüməkdə olan balaların yüksək şəraitdə təlim və tərbiyə almaları üçün göstərilən diqqət və qayğıdan böyük fərəh hissi keçirdiklərini bildirmişlər. Qeyd etmişlər ki, ilk dəfədir ki, kəndimizdə belə yüksək şəraiti olan bağça tikilmiş və istifadəyə verilmişdir. Uşaqlar üçün yaradılan bu gözəl şəraitə görə Respublika Prezidenti İlham Əliyevə müəllim və valideynlər, bütün kənd sakinləri adından öz dərin minnətdarlıqlarını bildirmişlər. Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova ən xoş arzularını çatdırmışlar.

Uşaq bağçası binalarının rəmzi açılışını bildirən lent kəsildikdən sonra tədbir iştirakçıları əsaslı şəkildə təmir olunan bağçalarla tanış olmuşlar. Əvvəlcə, bağçaların dünənini və bu gününü özündə əks etdirən fotostendə baxmışlar. Bağçalarla tanış olduqdan sonra Rəcəb Babaşov hər iki bağçada çalışan kollektivlə görüşmüş tapşırıq və tövsiyələrini vermişdir.

Bağçada tərbiyə alan uşaqlar növbə ilə Vətən, Ana və Ordumuz haqqında şeirlər söyləmişlər. Onların oxuduqları şeirlər böyük maraqla qarşılanmışdır.

Sonra Rəcəb Babaşov bağçaların kollektivləri və körpə balalarla xatirə şəkli çəkdirmişdir.

Hər iki bağçada yaradılan şərait tədbir iştirakçıları tərəfindən yüksək qiymətləndirilmişdir.

Daha sonra İcra Başçısı Daş Salahlı və Xanlıqlar kəndlərinə gəlmişdir. Daş Salahlı kəndində aparılan tikinti-abadlıq və Xanlıqlar kəndindəki uşaq bağçasında aparılan əsaslı təmir işləri ilə tanış olmuşdur. Aparılan işlərin gedişi ilə maraqlanmış, bir sıra tapşırıqlar vermişdir.

**Elçin İSMAYIL**

# Respublika birinciliyinin qalibləri ilə görüş keçirilmişdir

**Respublikamızda elə bir bölgə yoxdur ki, orada ən müasir idman qurğuları olmasın və idman inkişaf etməsin. Məhz bunun nəticəsidir ki, ən mötəbər yarışlarda, ölkə birinciliklərində paytaxt Bakı ilə yanaşı, bölgələrdə yaşayan gənclər də iştirak edərək Azərbaycan bayrağını yüksəldir, dövlət himnimizi səsləndirirlər. Bu qələbələrdə qazaxlı idmançıların da payı az deyildir.**



2005-2006-cı il təvəllüdlü yeniyetmələr arasında ağır atletika üzrə keçirilən Yeniyetmələrin XI Respublika Oyunlarının final yarışlarında Qazax rayonundan da idmançılar iştirak edərək layiqli yerlər tutmuşlar. Belə ki, 2-6 oktyabr 2017-ci il tarixlərdə Xaçmaz şəhər Olimpiya İdman Kompleksində keçirilən birincilikdə 6 qızıl, 1 gümüş və 1 bürünc medal qazanan qazaxlı atletlər komanda olaraq böyük uğura imza atmışlar.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov qalib olmuş idmançılarla görüşmüşdür. İcra Hakimiyyətində keçirilən görüşdə idmançılar, məşqçi müəllimlər, KİV nümayəndələri iştirak etmişdir.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək qazanılan qələbə münasibətilə idmançıları və bütün idmansevərləri təbrik etmişdir. Qeyd etmişdir ki, əldə edilən hər bir uğuru Azərbaycanda aparılan düşünülmüş siyasətin məntiqi nəticəsi kimi dəyərləndirmək lazımdır. Qazanılan bu qələbə bütün qazaxlı idmançıların uğurudur.

Sonra rayon rəhbərliyi qalib gəlmiş idmançıların əldə etdikləri nəticələrlə maraqlanmış və onların yarış təəssüratlarını dinləmişdir.

Rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Nəbiyev çıxış edərək yarışın keçirilməsi və gedişi barədə rayon rəhbərliyinə məlumat vermişdir.

İdarənin nəzdində fəaliyyət göstərən Uşaq Gənclər İdman Məktəbinin baş məşqçisi, SSRİ idman ustası, fəxri bədən tərbiyəsi və idman işçisi Nizami Qasımov, idman ustası, respublikanın əməkdar məşqçisi Rəayət Abdalov çıxış edərək idmana və idmançılara göstərdiyi dəstəyə görə Ölkə Başçısı İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirmişlər. Onları qəbul etdiyinə və qayğı ilə yanaşdığına görə rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova təşəkkürlərini çatdırmışlar.

Qalib adını qazanmış idmançılardan Aişə Əliyeva, Firat Məmmədov, Ravil Alməmmədov, Qasım İsmayılov, Abdulmətin İsmayılov, Arif Mustafazadə. Səbuhi Orucov, Mübariz Yerevanlı çıxış edərək onlara göstərdiyi diqqət və qayğıya görə rayon rəhbərliyinə minnətdarlıq etmişlər.

Tədbirin sonunda rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov qalib idmançılarla xatirə şəkli çəkdirmişdir.

# Dünya çempionları ilə görüş



**Qazax rayon İcra Hakimiyyətində Qol güləşi üzrə keçirilən 39-cu Dünya çempionatının qalibləri ilə görüş keçirilmişdir.**

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov dünya çempionlarını təbrik edərək onlara ən xoş arzularını bildirmişdir. Qeyd etmişdir ki, respublikamızda idmanın bütün növlərinin inkişaf etməsi üçün gözəl şərait yaradılmışdır. Ölkə Başçısı idmançılara hər cür dəstək verir, onlara diqqət və qayğı ilə yanaşır. Bunun nəticəsidir ki, dünyanın ən böyük idman arenalarında Azərbaycanın üçrəngli bayrağı dalğalanır, himnimiz səslənir. Bildirmişdir ki, respublikamızda olduğu kimi, Qazaxda da idmanın inkişafına hər cür kömək göstərilir. Son zamanlar bu sahədə aparılan təmir-tikinti işləri, idmançılara yaradılan şərait bunun bariz nümunəsidir. Sizin bu qələbənizi alqışlayır və daha böyük idman uğurları arzulayıram.

Qazax Qol Güləşi Məktəbinin rəhbəri, qol güləşi üzrə respublikanın əməkdar məşqçisi, Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi Azər Əliyev çıxış edərək çempionat haqqında məlumat vermişdir. Bildirmişdir ki, Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilən dünya çempionatında Azərbaycan yığma komandası 8 idmançı ilə təmsil olunmuşdur ki, onlardan da 3 nəfəri Qazax Qol Güləşi Məktəbinin idmançılarıdır. Ümumilikdə, Azərbaycan yığma komandası bu yarışda 6-sı qızıl, 2-si gümüş olmaqla 8 medal qazanmışdır ki, onlardan da 5-i qazaxlı idmançıların payına düşür.

İdmançılarımızdan Ramazan Rüstəmov (65 kq) sağ və sol qolların hər birində I yer tutaraq qızıl medal qazanmışdır. Neymət Vəkilov (60 kq) sol qolda I yerə layiq görülərək qızıl medala sahib olmuşdur. İsgəndər Mustafayev (55 kq) isə sağ qolda I yeri, sol qolda isə II yeri tutaraq qızıl və gümüş medallarla təltif olunmuşlar.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov dünya çempionları və komandanın rəhbərini bir daha səmimi qəlbdən təbrik edərək onları Fəxri Fərman və pul mükafatları ilə mükafatlandırmışdır.

Azər Əliyev isə öz növbəsində üzərində Qol Güləşi Federasiyasının emblemi olan və sözləri yazılmış idman köynəyini Rəcəb Babaşova təqdim etmişdir.

**Xuraman ƏZİMOVA**

# Şair Mübariz Qaragözlünün 50 illik yubileyi qeyd olunmuşdur

***Ədəbiyyat Muzeyində Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Aşıqlar Birliyinin üzvü, Prezident təqaüdçüsü, şair Mübariz Qaragözlünün 50 illiyinə həsr olunmuş təntənəli yubiley tədbiri keçirilmişdir. Tədbirdə İcra Aparatının məsul işçiləri, idarə, müəssisə və təşkilat rəhbərləri, şairlər, aşıqlar, saz-söz adamları, yubilyarın yaxın qohumları, dostları, KİV nümayəndələri iştirak etmişdir.***

Yubiley tədbiri aşıq Hüseyn Dərgahquluyevin ifasında səslənən qədim el havası ilə başlamışdır. Aşıq Ədalət Nəsibovun xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq Mübariz Qaragözlünü 50 illiyi münasibətilə səmimi qəlbdən təbrik etmiş, gələcək işlərində, yaradıcılığında daha böyük nailiyyətlər qazanmağı arzulamışdır. Qeyd etmişdir ki, bu gün Qazax torpağı öz şairləri, yazarları, saz-söz adamları ilə bütün dünyada öz sözünü deyib. Sevindirici haldır ki, həmin yaradıcılıq ənənəsi bu gün də davam edir. M.Qaragözlü kimi şairlər poeziyamızda öz dəst-xətti ilə seçilərək o ənənəni yaşadırlar.





Tədbirin aparıcısı, AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal yubilayrın həyat və yaradıcılığından ətraflı söz açmışdır. Qeyd etmişdir ki, şeirləri ardıcıl olaraq respublikanın ədəbi qəzet və jurnallarında, almanaxlarda çap olunmuşdur. Müddətli Prezident təqaüdçüsü olmuşdur. "Qayıt, dağlar oğlu" (2000) və "Şair Haqqı" (2013) kitablarının müəllifidir. Keçirilən tədbirin məqsəd və əhəmiyyətindən danışan B.Vüsal bu tədbiri şairlərə, söz adamlarına verilən ən böyük dəyər kimi qiymətləndirmişdir.

Sonra söz Bakı, Gəncə, Tovuz, Ağstafadan qonaq gəlmiş saz-söz adamlarına verilmişdir.

AYB-nin üzvlərindən ədəbi məsləhətçi Mustafa Rasimoğlu, Rəfael İncəyurd, H.Arif ədəbi Məclisinin sədri Saqif Qaratorpaq, Məzahir Yaqub, Məzahir Alıyev, şairə Çiçək Mahmudqızı, yubilyarın dayısı Məhəmməd Qaragözlü çıxış edərək M.Qaragözlünü təbrik etmiş, ona uzun ömür, cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulamışlar.

Aşıqlardan Camoy Qurbanov, İlqar Qələmçəli, Samir Allahverdiyev, Təbriz Qaragözlü, aşıq Şaiq İncəli, İnsafə Əhmədova, aşıq Mahal, aşıq Osman saz havaları üstündə Mübariz Qaragözlünün şeirlərini oxumuşlar.

Aslan Kəmərli adına Kəmərli kənd tam orta məktəbin şagirdlərinin ifasında M.Qaragözlünün şeirləri səslənmişdir.

Tədbirin sonunda M.Qaragözlü çıxış edərək respublikamızda şairlərə, saz-söz adamlarına göstərdiyi diqqət və qayğıya görə Ölkə Başçısı İlham Əliyevə bütün yaradıcı insanlar adından öz dərin minnətdarlığını bildirmişdir. Onun yaradıcılığına yüksək dəyər verdiyinə və belə yüksək səviyyədə yubiley tədbiri təşkil etdiyinə görə rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova sonsuz təşəkkürlərini çatdırmışdır. Sonra öz yeni şeirlərini oxumuşdur.

# Türkiyənin Azərbaycandakı baş konsulu və Litvanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Qazax rayonunda olmuşlar



**Türkiyənin Azərbaycandakı baş konsulu Orhan İşıq və Litvanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Valdas Lastauskas rayonumuzda olmuşlar. Qonaqlar Qazax rayon İcra Hakimiyyəti başçısı Aparatında çox səmimi qarşılanmışdır. Sonra görüş olmuşdur.**

Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Məmməd Alıyev qonaqları rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun adından salamlayaraq xoş gəldin demişdir. Sonra Litva və Türkiyənin rayonumuzda həyata keçirdikləri layihələrdən söz açmışdır. Qeyd etmişdir ki, həm Daş Salahlı kəndindəki Təhlükəsiz Oyun Meydançası, həm də Abbasbəyli kəndində tikilmiş tibb məntəqəsi xeyirxah məqsədə xidmət edir. Bu, eyni zamanda dövlətlərimiz arasında mövcud olan dostluq münasibətinin əyani sübutudur.

Litvanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Valdas Lastauskas çıxış edərək rayon rəhbərliyinə və Qızıl Aypara Cəmiyyətinə bu layihənin həyata keçirilməsi üçün yaratdıqları şəraitə görə minnətdarlığını bildirmişdir. "Sevinirəm ki, qədim şəhərimiz olan Trakayla Qazax rayonu arasında əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. Ümid edirəm ki, bu əlaqələrimiz daha da genişlənəcəkdir" - deyə səfir bildirmişdir.

Türkiyə dövlətinin Azərbaycandakı baş konsulu Orhan İşıq öz çıxışında Türkiyə-Azərbaycan dostluğundan söz açaraq iki dövlət arasında olan qardaşlıq münasibətlərindən danışmışdır. Qeyd etmişdir ki, bu mənim Qazax rayonuna ilk səfərimdir və həyata keçirdiyimiz ilk layihədir. Ümid edirəm ki, bundan sonra bu əlaqələrimiz daha da genişlənəcək, daha böyük işlər həyata keçiriləcəkdir.

Sonra M.Alıyev qonaqlara üzərinə Qazax rayonunun simvolu olan Göyəzən dağının şəkli əks olunmuş suvenir hədiyyə etmişdir.

Sonra Daş Salahlı kənd 1 saylı tam orta məktəbin həyətində tikilmiş Təhlükəsiz Oyun Meydançasının və Abbasbəyli kəndində "Türkkızılayı"nın əməkdaşlığı ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən yüksək səviyyədə inşa edilən yeni tibb məntəqəsinin açılışları olmuşdur.

Eyni zamanda Daş Salahlı kənd 1 saylı tam orta məktəbin I və II siniflərində oxuyan şagirdlərə 173 ədəd məktəbli çantası hədiyyə olunmuşdur.

**Nüşabə HÜSEYNOVA**

## İTMİŞDİR

**14 saylı Ərazi Vergilər İdarəsi tərəfindən 24.02.1997-ci ildə verilmiş "CARÇIOĞLU GROUP" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus qeydiyyat nömrəsi 4200079301 olan Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Qazax rayonu üzrə Maliyyə İdarəsinin rəisi Novruz Abdullayev və kollektivi idarənin Xəzinə Əməliyyatları Sektorunun baş məsləhətçisi Azər Aşırova həyat yoldaşı

**CEYRAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşması

***Demokratiya və insan hüquqları, sosial tərəqqi kimi ümumbəşəri dəyərlərə sadiq olan və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycan Respublikası insanların layiqli həyat şəraitinin, rifah səviyyəsinin, cəmiyyətdə özlərini təsdiqetmə imkanlarının artırılması üçün ciddi səylər göstərir.***

12 noyabr 1995-ci ildə qəbul edimiş Azərbaycan Respublikası Konstitusiyasının II bölməsinin III və IV fəsillərində - "Əsas insan və vətəndaş hüquqları və azadlıqları"nda və "Vətəndaşların əsas vəzifələri"ndə insan hüquq, azadlıq və vəzifələri özünün geniş əksini tapmışdır.

1998-ci ildə ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının tərəqqisini məhz "insan meyarı"nın inkişaf etdirilməsində görərək, insan hüquqlarının müdafiəsi sahəsində ilk fundamental sənəd olan Milli Dövlət Proqramını təsdiq etmişdir.

Demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş tədbirlər nəticəsində bir çox nailiyyətlər əldə edilmişdir.

2006-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir.

Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının icra vəziyyəti mütəmadi qaydada təhlil edilmiş, onun icrası nəticələrinin müzakirəsi üçün cəmiyyətin bütün təbəqələrinin nümayəndələrinin iştirakı ilə ictimai dinləmələr keçirilmişdir.

İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı təsdiq edilmişdir.

Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən 27 dekabr 2011-ci il tarixində Sərəncam imzalamışdır. Ölkə Başçısı tərəfindən imzalanan bu Milli Fəaliyyət Proqramı Azərbaycan Prezidentinin mövqeyini, onun ölkəni inkişaf etmiş iqtisadiyyata və regionda möhkəm mövqe tutan təsirli sosial siyasətə malik müasir demokratik hüquqi dövlət kimi görmək istəyini əks etdirir. Milli Fəaliyyət Proqramının hazırlanması prosesində bizim insan hüquqları sahəsində əldə etdiyimiz təcrübədən, habelə digər ölkələrin təcrübəsindən istifadə olunub. Həmin təcrübə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının "İnsan hüquqları sahəsində milli planların hazırlanması üzrə vəsait" adlanan sənəddə ümumiləşdirilib.

Milli Fəaliyyət Proqramına, ilk növbədə, "Azərbaycan-2020: gələcəyə baxış" inkişaf strategiyasının hazırlanması çərçivəsində irəli sürülən vəzifələrin kontekstində baxmaq lazımdır. Bu, bir daha sübut edir ki, insan hüquqlarının müdafiəsi Azərbaycan Prezidentinin siyasətinin prioritetidir.

Milli Fəaliyyət Proqramı insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi məqsədi ilə təsdiq edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində müəyyən edilmişdir ki, insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Bu məqsədə nail olmaq üçün Azərbaycan Respublikasında qəbul edilən qanunların ilk növbədə Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının təmin olunmasına yönəldilməsi zəruridir. Ölkədə yaranmış qanunyaradıcı təcrübə göstərir ki, qanunların hazırlanması zamanı Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr rəhbər tutulur, habelə bir çox qanun layihələri onların hazırlanması prosesi zamanı insan hüquqları sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatların ekspertizasına təqdim olunur, onların rəyi nəzərə alınmaqla qəbul edilir.

Normativ-hüquqi bazanın təkmilləşdirilməsi, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi, dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, insan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə tədbirləri, insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq və Milli Fəaliyyət Proqramının həyata keçirilməsinin əlaqələndirilməsi, monitorinqi və qiymətləndirilməsi adlı 6 bölmədən ibarətdir.

Azərbaycan xalqının rifahının yüksəldilməsini başlıca məqsəd kimi qarşıya qoyan Azərbaycan dövləti bu istiqamətdə planauyğun işlərin görülməsini davam etdirir. Ona görə də, əlbəttə ki, insan hüquqlarına dair bir proqramda sosial hüquqların müdafiəsi sahəsində həyata keçirilməsi planlaşdırılan bütün tədbirlərin müəyyən edilməsi mümkün deyil. Dövlət fəaliyyətinin yuxarıda göstərilən sahələrində öz əhəmiyyətli bəhrəsini verən ayrıca konkret proqramlar işləyir.

Bundan başqa, insan hüquqlarının həqiqətən təmin olunması üçün onların müdafiə mexanizmləri də işləməlidir. Həmin mexanizmlər dövlətin idarəetmə, hüquq-mühafizə orqanları və məhkəmələrinin fəaliyyətinin şəffaflığının gücləndirilməsi vasitəsilə inkişaf edir. Bu sahədə tədbirlər Milli Proqramın növbəti - üçüncü fəslində müəyyən edilib. "Elektron hökumət"in tətbiqinin, korrupsiya ilə mübarizənin təmin olunması, hakim korpusunun müstəqilliyi və peşəkarlığının artırılması, məhkəmə qərarlarının icrasının lazımi səviyyədə icra olunması və digər tədbirlər qanunvericiliyin təkmilləşdirilməsi kompleksində insan hüquqlarının müdafiəsi praktikasını keyfiyyətcə yeni səviyyəyə keçmişdir.

Əhalinin hüquqi mədəniyyət səviyyəsini, insanların öz hüquqlarını və cəmiyyətin həyatında rolunu anlamasının səviyyəsini artırmaq, uşaqlara lap erkən yaşlarından və açıq şəkildə bütün insanlar tərəfindən hüquq və azadlıqlara qarşılıqlı hörmətin cəmiyyətin inkişafının rəhni olduğunu izah etmək bir vəzifə olaraq qarşıya qoyulmuşdur.

Tam əminliklə deyə bilərik ki, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" ulu öndərimiz tərəfindən təməli qoyulmuş insan hüquqları sahəsində strategiyanın məntiqi davamı və dövlətin növbəti siyasi iradəsi olmaqla, insan və vətəndaş hüquqlarının hərtərəfli həyata keçirilməsinə, onların icra mexanizmlərinin təkmilləşdirilməsinə real zəmanət verir.

**Nəriman ƏSƏDOV,**
**Qazax rayon prokurorunun köməkçisi,**
**III dərəcəli hüquqşünas**

## ELAN

**Azərbaycan Respublikasının Daxili İşlər Naziri Ramil Usubov tərəfindən Daxili İşlər Orqanları əməkdaşlarının fəaliyyətinə aid məsələlərlə bağlı (kadr məsələsi istisna olmaqla) 28 oktyabr 2017-ci il tarixində Gəncə şəhərində vətəndaşların qəbulu keçiriləcəkdir.**

**Qəbula düşmək arzusu olan vətəndaşlar qeydiyyata alınması və əlavə məlumat əldə etmələri üçün 16 oktyabr 2017-ci il tarixinədək Qazax rayon Polis Şöbəsinə müraciət edə bilərlər.**

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**(02229) 5-14-97; (02229) 5-32-29**


Baş redaktor: ELÇİN İSMAYIL

TƏSİSÇİ: QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN: QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor) 5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB38060019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ:1200 SİFARİŞ: 3040

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir.
Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib.
Foto: Abbas Kazımov